

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 aprel 2022-ci il №30 (2641) https://mod.gov.az Qiyməti 30 qəpik

## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə əlaqədar **qərara alıram**:

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,5 milyon (üç milyon beş yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 aprel 2022-ci il

*Döyüş hazırlığı*

## “Layiqli vətəndaş olmağın təməli Vətən sevgisidir”



Artilleriya qurğularının dünya ordularının arsenalında özünəməxsus yeri var - dəqiq artilleriya zərbələri döyüşün gedişini dəyişmək iqtidarındadır. Artilleriya qurğusundan peşəkarcasına istifadə etmək hərbçidən yüksək bilik, fiziki hazırlıq və möhkəm iradə tələb edir. Tarixən döyüşlərdə yüksək səriştəsi ilə qələbələri təmin edən artilleriyaçılarımız olub. Əlağa Şıxlinski və Səməd bəy Mehmandarovun adları tarixlər boyunca yaşayacaq. Bu gün onların irsini layiqincə davam etdirən peşəkar artilleriyaçılarımız var. Vətən müharibəsində düşmənin başına od ələyən topçularımız tarixi ənənələrimizi layiqincə yaşatdılar. Düşmənin uzun illər ərzində yaratdığı mühəndis-istehkam qurğuları, müdafiə sədləri təcrübəli hərbçilərimiz tərəfindən məhv edildi.

Bu gün Azərbaycan Ordusunun maddi-texniki təminatının yaxşılaşdırılması, döyüş hazırlığının yüksəldilməsi prioritet məsələlərdəndir. Hərbi xidmətdə qazanılan döyüş hazırlığının mənimsənilməsinin vacib şərtləri bunlardır - intizam, vətənpərvərlik, məsuliyyət, ayıq-sayıqlıq, çalışqanlıq. Həmçinin döyüşçü yüksək mənəvi-psixoloji keyfiyyətlərə malik olmasını, Vətəninə, millətinə bağlılığını nümunəvi xidmətində əks etdirməlidir. Nümunəvi xidməti ilə seçilən əsgər komandirin əmr və tapşırıqlarını vaxtında və düzgün yerinə yetirməlidir. Belə ki, şəxsi heyətin daim döyüşə hazırolma səviyyəsini yüksək səviyyədə saxlaması üçün komandir heyətinin də peşəkar hazırlığı vacib şərtdir. Məhz peşəkar komandirin rəhbərlik etdiyi bölmənin hərbi qulluqçuları ona təhkim olunmuş silah, sursat, texnika və texniki vasitələrdən təyinatına uyğun istifadə etmək bacarığına malik olur. Onların başçılığı altında bölmələrdə təşkil olunan nəzəri və praktiki məşğələlərdə şəxsi heyət ixtisas, döyüş və atəş hazırlığı dərslərini mənimsəyir. Hərbi qulluqçularımız keçirilən müxtəlif miqyaslı təlimlərdə mənimsədikləri bilikləri uğurla tətbiq edirlər.

"Döyüş hazırlığı yüksək olanların qələbəsi mütləqdir", - deyən topçularla tanış olduq. Zabit Elçin Həsənov dedi: "Bölmədə hər bir hərbi qulluqçunun üzərinə düşən əsas tapşırıq vəzifə borcunu düzgün və lazımi səviyyədə qavramaqdır. Belə ki, verilən komandaların operativ şəkildə yerinə yetirilməsi üçün vəzifə borcunu bilmək, onu tətbiq etmək əsas şərtdir. Bunun üçün də tapşırığın icrası zamanı hər kəs bilik və bacarığını ortaya qoymalıdır. Top heyətinin xidmət müddətində təcrübəsini artırmaq üçün təşkil olunan dərs və keçirilən müxtəlif miqyaslı təlimlər önəmlidir. Qarşıya qoyulan normativlərin vaxtında və dəqiq yerinə yetirilməsi bölmənin döyüş hazırlığının əsas göstəricilərindən biridir. Artilleriya yüksək dəqiqlik tələb edən qurğu olduğundan, tələb olunan nəticələrə nail olmaq üçün keçirilən təlim və məşq proseslərinin səmərəliliyi komandirlərin diqqət mərkəzindədir. Atəş mövqeyinin tutulması, texnikanın döyüşə və səfərə hazır vəziyyətə gətirilməsi həm hərbi, həm fiziki, həm də psixoloji təcrübə tələb edir. Buna görə də şəxsi heyətin sadalanan keyfiyyətləri qoruyub saxlaması və artırması üçün komandirin üzərinə böyük vəzifə düşür. Bölməmizdəki şəxsi heyətlə söhbət zamanı milli mənlik şüurunun inkişaf etdirilməsinə, onlarda vətənpərvərlik hissinin yüksəldilməsinə də xüsusi diqqət yetirirəm. Vətənpərvərlik ən güclü silahdır. Bu silahı sinəsinə sıxaraq döyüşə atılanlar qəhrəmanlıq və fədakarlıq göstərdilər. Vətən müharibəsinin qəhrəmanlarından şəxsi heyətə tez-tez söhbət açıram. Hər kəs bilməlidir ki, bu gün rahat və firavan həyat sürə biliriksə, bunu şəhidlərimizə borcluyuq. Hazırda xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Təbriz Həsənovun qardaşı Tofiq Həsənov da o döyüşlərdə şəhadətə yüksələn qəhrəman oğullarımızdandır".

**(Ardı 4-cü səhifədə)**

## Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülərə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Qardaş Türkiyə Silahlı Qüvvələri tərəfindən "Pençə-Kilit" əməliyyatının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçusunun şəhid olması xəbəri məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və Sizi var gücümüzlə dəstəkləyirik.

Şəhid olan hərbi qulluqçuya rəhmət diləyir, onun yaxınlarının dərdlərinə şərik olur, ailəsinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

## Azərbaycan nümayəndə heyəti Bolqarıstanda keçirilən beynəlxalq konfransda iştirak edib





*Bolqarıstan Respublikasının G.S.Rakovski adına Hərbi Akademiyasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.*

Ölkəmizi bu konfransda Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, konfransın plenar iclasında general-leytenant H.Piriyev "İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi" mövzusunda məruzə ilə çıxış edib, iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

Bolqarıstanda keçirilən beynəlxalq konfransda Azərbaycan ilə yanaşı, Polşa, İsveç, Şimali Makedoniya və Gürcüstandan olan 100-dən çox məruzəçinin də çıxışları dinlənilib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin G.S.Rakovski adına Hərbi Akademiyanın və V.Levski adına Milli Müdafiə Universitetinin rəhbərləri, eləcə də Veliko Tarnovo şəhərinin meri ilə görüşü keçirilib.

## Əlahiddə Ümumqoşun Ordunun mühəndis bölmələrində praktiki məşğələlər keçirilir





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun mühəndis bölmələrində praktiki məşğələlər keçirilir.

Praktiki məşğələlərə cəlb olunan mühəndis bölmələri səhra təlim mərkəzlərinə çıxarılıb.

Şəxsi heyətin silahlanmaya qəbul edilmiş müasir mühəndis texnikası və avadanlıqlarından effektiv istifadəsi üzrə bacarıqlarının təkmilləşdirildiyi məşğələlər 44 günlük Vətən müharibəsində qazanılmış təcrübəyə əsasən keçirilir.

Məşğələlər zamanı silahlanmada mövcud olan müasir mina əleyhinə qoruyucu istehkam kostyumları və minaaxtaranlar, ön xəttin qarşısında qurulacaq partlamayan piyada və tank əleyhinə mühəndis maneələrinin nümunələri, döyüş və avtomobil texnikalarının səngərləri və daldalanacaqları nümayiş etdirilib. Şəxsi heyətə "Pomnis-2" mina sahələrindən keçidaçma qurğusunun taktiki-texniki xüsusiyyətləri və iş prinsipi, mühəndis-müşahidə postlarından düşmənin mühəndis kəşfiyyatının aparılması qaydaları çatdırılıb.



Məşğələlərdə mühəndis yol bölmələri tərəfindən təbii və süni maneələrdən texnikaların keçidi təmin edilib, şəxsi heyət partlayıcı qurğu və vasitələrdən istifadə qaydaları üzrə praktiki məşq etdirilib.

Əlahiddə Ümumqoşun Orduda şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədilə keçirilən məşğələlər davam edir.

## Mühəndis Qoşunlarının fəaliyyəti haqqında məlumat



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad edilmiş ərazilərimizdə mühəndis işləri davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir.

Azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində aprel ayının 1-dən 15-dək olan müddət ərzində 492 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 15000 hektardan artıq ərazi minalardan təmizlənib. Ümumilikdə 6095 ədəd piyada əleyhinə, 2172 ədəd tank əleyhinə və 9368 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad edilən ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

## Azərbaycan Ordusunun rabitə hissə və bölmələrində məşğələlər keçirilib



2022-ci il döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun rabitə hissə və bölmələrində ixtisas hazırlığı üzrə məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlərdə səhra rabitə qovşağı və elementlərinin ərazidə açılması, yaranmış mürəkkəb şəraitdə vahid rabitə sisteminin təşkil edilməsi ilə bağlı tapşırıqların yerinə yetirilməsi praktiki olaraq məşq etdirilib.

Rabitəçilər idarəetmənin təşkili üçün ərazidə açılmış dayaq və mobil rabitə qovşaqlarından qərargahlararası yüksək keyfiyyətli səs və məlumat mübadiləsini bacarıqla yerinə yetiriblər.

# “Cəmşid Naxçıvanski adına Hərbi Lisey günü” təntənə ilə qeyd edilib





Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yarandığı gün şəxsi heyətin yay tətilinə təsadüf etdiyindən hərbi lisey gününün nə vaxt qeyd edilməsi həmişə problemlər yaradırdı.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Cəmşid Naxçıvanski adına Hərbi Lisey günü"nün qeyd edilməsi haqqında 5 aprel 2014-cü il tarixli əmrinə əsasən, artıq 9 ildir ki, 19 aprel günü Hərbi Lisey günü kimi təntənəli şəkildə qeyd edilməkdədir.

Bu günün seçilməsi heç də təsadüfü deyildir. Ulu öndər Heydər Əliyev 2003-cü il həmin gün sonuncu dəfə banisi olduğu bu möhtəşəm təhsil ocağını ziyarət etmiş, şəxsi heyətlə görüşmüş, onların qarşısında çıxış edərək zabit-müəllim heyətinə uğurlar arzulamış, gələcəyin sərkərdələrinə xeyir-dua vermiş və məktəbə Döyüş Bayrağı təqdim etmişdir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aprelin 19-da Müdafiə Nazirliyinin rəsmiləri, məktəbin yetirməsi olan Vətən Müharibəsi qəhrəmanları, veteranlar, şəhid ailələrinin üzvləri, ictimaiyyət nümayəndələri məktəbi ziyarət edərək Hərbi Lisey günü münasibətilə keçirilən tədbirlərə qatılıblar.

Əvvəlcə Heydər Əliyev Mərkəzi ziyarət olunub, Ulu Öndərin büstü önünə qızılgül çələngi qoyulub, xatirəsi ehtiramla yad edilib. Ziyarətçilərə muzeyin zəngin ekspozisiyası barədə ətraflı məlumat verilib. Əbədiyaşar Ali Baş Komandanın həyat və fəaliyyətinin müxtəlif anlarını əks etdirən tarixi sənədlər, fotolar, kitablar, videosujetlər böyük maraq oyadıb. Heydər Əliyev Mərkəzinin xatirə kitabına ziyarətçilər adından ürək sözləri yazılıb.

Sonra hərbi lisey şəhərciyində xalqımızın igid oğlu Cəmşid Naxçıvanskinin şərəfinə ucaldılan abidə qarşısına çələng qoyulub.

Hərbi lisey rəisi vəzifəsini icra edən polkovnik Saday Balayev Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilova şəxsi heyətin təntənəli mərasimə hazırlığı barədə məruzə edib.

General-mayor E.Xəlilov şəxsi heyəti salamlayıb və onları Hərbi Lisey günü münasibətilə təbrik edib.



Təntənəli mərasim başlamazdan öncə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi liseyin şəxsi heyətinə ünvanladığı təbrik məktubu tədbir iştirakçılarının nəzərinə çatdırılıb.



General-mayor E.Xəlilov çıxış edərək deyib: "Azərbaycanın gələcəkdə müstəqil dövlətə çevriləcəyini öncədən görərək milli ordumuzun zabitlərini yetişdirmək məqsədilə dahi Heydər Əliyevin yaratdığını bu lisey Ulu Öndərimizin xalqımıza bəxş etdiyi möhtəşəm abidələrdən biridir. Ümummilli Lider 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi ilk gündən gənclərimizin ali hərbi məktəblərə daha çox göndərilməsi və hərbi vətənpərvərlik tərbiyəsi işinin daha da yüksəldilməsi məsələlərini ön plana çəkmiş və bu sahədə məqsədyönlü fəaliyyət göstərmişdir. Keçmiş Sovetlər İttifaqında milli zabit kadrlarının yetişdirilməsinə hesablanmış belə bir məktəbi yalnız gələcəyi öncədən görən, xalqının, millətinin gələcəyini düşünən Heydər Əliyev kimi şəxsiyyətlər yarada bilərdi və yaratdı da".

Qeyd edilib ki, 51 il öncə göstərilən bu təşəbbüs bu gün bəlkə də bir qədər adi görünə bilər. Lakin sovet ideologiyasının hakim olduğu bir dövlətdə bu, heç kəsin xəyalına belə gəlməz və heç kim bu ağır yükün məsuliyyətini öz üzərinə götürməzdi. Belə bir analoqsuz məktəbi Heydər Əliyev yaratdı. Nəinki yaratdı, uşaq kimi qayğısına qalaraq böyütdü, qorudu və ərsəyə çatdırıb 30 illik yubileyində şəxsən iştirak etdi. İllər ötdükdən sonra Ulu Öndər demişdir: "Mən Azərbaycanda əvvəllər heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü şəxsən özüm çox yüksək qiymətləndirirəm".

Nəzərə çatdırılıb ki, Heydər Əliyev hərbi liseyi doğma övladı qədər sevər, bir an belə diqqət və qayğısını bu məktəbdən əsirgəməzdi. O, yaxşı bilirdi ki, bu məktəb Azərbaycanın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən təhsil ocağıdır. Bu ocaqdan gələcəyin azərbaycanlı zabitləri, generalları pərvazlanacaq, Vətənin etibarlı müdafiəçiləri olacaqlar.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra "Naxçıvanskilər" Vətənə döndülər. Onlar respublikamızın müstəqilliyinin, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstərdilər. Hərbi liseyin yetirmələrindən 11 nəfər "Azərbaycanın Milli Qəhrəmanı", 19 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adlarına, yüzlərlə məzun isə Azərbaycan Respublikasının müxtəlif orden və medallarına layiq görüldü. Təkcə Vətən müharibəsi cəbhələrində məktəbin yetirmələrindən 100-dən çox zabit şəhidlik zirvəsinə ucaldı. Hazırda respublikamızın Silahlı Qüvvələrində hərbi liseyin yetirməsi olan yüzlərlə zabit, general Vətənə xidmətini şərəflə davam etdirir.

Təntənəli mərasimdə vurğulanıb ki, hərbi lisey bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunub. Şəhərcikdə yenidənqurma və əsaslı təmir işləri yüksək səviyyədə başa çatdıqdan sonra dövlətimizin başçısı məktəbi ziyarət edib, görülən işləri yüksək qiymətləndirib və şəxsi heyət qarşısında çıxış edərək burada təhsil alan kursantlara və çalışan müəllimlərə Vətənin qorunması işində həmişə fəal olmağı, öz güclərini göstərməyi arzulayıb.



"Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn vəzifələr də müvəffəqiyyətlə həyata keçirilib.

Hərbi liseyin zabit və müəllim kollektivi ulu öndər Heydər Əliyevin ideyalarına həmişə sadiqdir, gələcəyin peşəkar zabit kadrlarının yetişdirilməsi üçün üzərlərinə düşən müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlirlər.

Məktəbin ilk məzunlarından olan iki dəfə "Azərbaycan Bayrağı" ordenli ehtiyatda olan polkovnik Şair Ramaldanov çıxış edərək məktəblə bağlı xatirələrini, 1974-cü ildə Heydər Əliyevlə ilk görüşü barədə təəssüratlarını şəxsi heyətlə bölüşüb.

Hərbi orkestrin müşayiəti ilə "Naxçıvanskilər" marşı ifa olunub.

2003-cü il aprelin 19-da ulu öndər Heydər Əliyevin hərbi liseyə təqdim etdiyi Döyüş Bayrağı altında şəxsi heyətin tribuna önündən fəxri keçidindən sonra Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin layihəsi əsasında "Cəmşid Naxçıvanski adına Hərbi Lisey - Böyük gələcəyə baxış" adlı teatrlaşdırılmış kütləvi tədbir başlanıb.

Tədbirdə müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin əmri ilə təltif olunan zabit-müəllim heyətindən bir qrupuna təşəkkür elan edilib, fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Məktəbin məzunları, şəhid valideynləri, pedaqoji kollektivin üzvləri çıxış edərək xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı bu təhsil ocağının əhəmiyyətindən, ordu quruculuğundakı müstəsna rolundan bəhs edib, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Abdulla Qurbaninin Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinə həsr etdiyi "Böyük gələcəyə baxış" adlı kitabının təqdimatı olub və ilk nüsxələr təhsildə, təlimdə fərqlənən kursantlara, müəllimlərə, zabitlərə və qonaqlara hədiyyə edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və "Səda" uşaq rəqs ansamblının iştirak etdiyi "Böyük gələcəyə baxış" adlı ədəbi-musiqili-xoreoqrafik kompozisiya ilə tədbir başa çatıb.

# Unudulmayan qəhrəmanlar



"N" hərbi hissəsində Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun anım mərasimi keçirildi.

Tədbir iştirakçıları hərbi hissənin qarşısında qəhrəmana ucaldılan büstün önünə əklil qoydular, xatirəsini hörmət və ehtiramla andılar.

Mərasimdə Şəmkir rayonu, Kür qəsəbəsi İsgəndər Aznaurov adına 1 saylı orta məktəbin şagirdləri, Şəmkir Regional Mədəniyyət idarəsinin Kür qəsəbə Mədəniyyət Evinin kollektivi, ictimaiyyət nümayəndələri və hərbi hissənin şəxsi heyəti iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Hərbi hissənin zabiti mayor Yusif Məmmədli Milli Qəhrəmanın həyat və döyüş yolu barədə ətraflı məlumat verdi. Bildirdi ki, Axıska türkü olan İsgəndər Söhrab oğlu Aznaurov 16 avqust 1956-cı ildə Özbəkistan Respublikası Buxara vilayətinin Qala-Asiya kəndində anadan olub. 1989-cu ildə Özbəkistanın Fərqanə vadisindəki qanlı olaylardan sonra o da yüz minlərlə axıskalı kimi oranı tərk etməyə məcbur oldu və 1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycana gələrək, Kür qəsəbəsində məskunlaşdılar. 1992-ci ilin martında könüllü olaraq Azərbaycan Ordusuna qatıldı. "N" hərbi hissəsində xidmətə başladı. İsgəndər qısa müddət ərzində topçuluq məharəti, döyüş zamanı təşkilatçılıq bacarığı və peşəkarlığı ilə hər kəsin hörmət və rəğbətini qazandı. Çox keçmədən o, "topçu İsgəndər" kimi tanındı. İsgəndər Aznaurov Gədəbəy rayonunda Başkəndin erməni quldurlarından azad olunmasında, Mutudərədə, Şınıxda, Ər dağı və Ləzgi daşında, eləcə də rayonun digər strateji əhəmiyyətli ərazilərində xeyli düşmən texnikasını və canlı qüvvəsini məhv edərək böyük qəhrəmanlıqlar göstərdi. Hətta ermənilər bu şücaətlərinə görə onun başına yüksək məbləğdə vəsait də vəd ediblər.

Mayor Vüsal Quliyev çıxış edərək 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində rəşadətli ordumuzun qazandığı tarixi zəfərdən söz açdı. Xalqımıza bu Böyük Qələbə sevincini yaşadanların "topçu İsgəndər" kimi qəhrəman oğullarımızın davamçıları olduğunu vurğuladı. "44 gün davam edən Vətən müharibəsində igidlərimiz Vətən uğrunda qəhrəmanlıq, şücaət göstərib, torpaqlarımızın azadlığı uğrunda şərəflə vuruşdular. Onlar qorxu bilmədən düşmən üzərinə şığıdılar. Neçəsi insan mənəviyyatının ən yüksək zirvəsinə çatdı. Hamımız üçün müqəddəs amal sayılan Ana Vətənin yolunda canını qurban edən hər bir şəhid şanlı Qələbəmizin baş qəhrəmanıdır. Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüz uğrunda döyüşlər zamanı qəhrəmanlıqla şəhid olan Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurov da belə oğullarımızdandır. İsgəndər Aznaurov 1993-cü ilin yazında qəhrəmanlıqla şəhid oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətən torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi misilsiz xidmətinə görə baş leytenant Aznaurov İsgəndər Söhrab oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verildi. Onun xatirəsini daim dərin ehtiramla yad edir, qəhrəmanlıq yolunu gənc əsgərlərimizə nümunə göstəririk".





Qarabağ Müharibəsi veteranı Nəzakət Məmmədova tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, xalqımızın qəhrəmanlıq tarixi "topçu İsgəndər" kimi oğullarımızla zəngindir. Tarixin bütün dövrlərində qəhrəman oğullarımız Vətənimiz uğrunda döyüş meydanlarında şücaət və qəhrəmanlıqları ilə iz qoyublar. Biz hər zaman dövlətimizlə, xalqımızla və qalib ordumuzla qürur duymuşuq. Həmçinin onu da əlavə etdi ki, şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına Ali Baş Komandan tərəfindən daim yüksək diqqət və qayğı göstərilir.

Sonda məktəblilər hərbi vətənpərvərlik mövzusunda şeirlər oxudu, bədii kompozisiya nümayiş etdirdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# "Layiqli vətəndaş olmağın təməli Vətən sevgisidir"

**(Əvvəli 1-ci səhifədə)**

Əsgər Təbriz Həsənovla həmsöhbət oldum.

- Gədəbəy rayonunun Cəfərli kəndində dünyaya göz açmışıq. Qardaşım məndən 2 yaş böyük idi. Babamız Səyyad Həsənov İkinci Dünya müharibəsi, əmimiz Əkbər Həsənov isə Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Biz də 44 günlük Vətən müharibəsində iştirak etdik. Qardaşım müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Tofiq Həsənov Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı. O, 44 günlük müharibənin gətirdiyi qələbənin tarixini qanı ilə yazan oğullardandır. Müxtəlif hərbi hissələrdə xidmət etsək də, ürəklərimiz döyüşlərdə bir döyünürdü. Bu gün də qəlbim Tofiqlə döyünür, gözlərim hər yerdə onu axtarır. Onu hər an yanımda hiss edir və şəhidlər ölmür kəlməsinin həqiqiliyini indi anlayıram. Şərəfli tarixin bünövrəsini qoyan və bu yolda ömrünü qurban verən oğullarımızı daim yüksək ehtiramla yad etməliyik. Təsəllimiz ondan ibarətdir ki, Azərbaycanımızın ərazi bütövlüyü uğrunda şəhid olan hər bir igidimizin qisası düşməndən alınıb, torpaqlarımız işğalçılardan təmizlənib. Bu günləri bizə bəxş edən şəhidlərimizi unutmuruq, onları daim yad edirik. Qardaşım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Vətən sağ olsun!, - əsgər Təbriz Həsənov belə dedi.



"Güclü əsgər, savadlı müəllim, təcrübəli həkim, bir sözlə, layiqli vətəndaş olmağın təməli Vətən sevgisidir" deyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nurlan Əmirovla söhbətləşdim. "Əgər Vətənini sevirsənsə, peşəndən, yaşından, olduğun yerdən asılı olmayaraq, bayrağının yüksəkdə dalğalanması üçün əlindən gələni əsirgəmirsən. Xalqının firavanlığını təmin edən, ərazi bütövlüyünü qoruyan onun ordusudur. Ordumuzun gücü bu gün bütün dünyaya məlumdur. Bu gün hər birimiz sinəmizdə Vətənini sevən ürək daşıyırıq. Ürəyimiz Ana Vətən üçün döyünür. Qürurluyam, qalib ordunun mundirini daşıyıram, müqəddəs amala xidmət edirəm - Vətən keşikçisiyəm. Bu gün Azərbaycan Ordusunda xidmət edən hər kəsi bir məqsəd birləşdirir - torpaqlarımızın müdafiəsi. Azərbaycan Ordusunun əsgəri kimi Vətən qarşısında müqəddəs borcumuzu ödəyirik. Torpaqlarımızı göz bəbəyi kimi qorumalı, nəsildən-nəslə ötürməliyik", - deyə əsgər bildirdi.

Əsgərlər Mirsaleh Azayev, Rəhbər Kərimov, Elşən Səfərov və Fərid Alışzadə də vətənpərvər komandirlərinin rəhbərliyi altında öz döyüş hazırlıqlarını artırdıqlarını bildirdilər. Qeyd etdilər ki, hər bir əsgər ona təhkim olunmuş artilleriya silahından istifadə etmək bacarığına malikdir və hər bir heyət nəferi üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyi bacarır.

Sonda əsgərlər onu da xüsusi vurğuladılar ki, bu gün işğaldan azad olunmuş torpaqlarımızda dalğalanan üçrəngli bayrağımız onlara xüsusi könül xoşluğu bəxş edir və dərk edirlər ki, bu bayrağın dalğalanması üçün neçə-neçə igidimiz canını fəda edib. Döyüş hazırlığı və vətənpərvərlik hissi yüksək olan hərbi qulluqçularımızla söhbətləşdikdən sonra bir daha anladım ki, Azərbaycan əsgəri hər zaman qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə qadirdir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Arzusuna qovuşan qəhrəman



Ötən il Zəfər Günündə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda Bayraq meydanı istifadəyə verildi. Üçrəngli bayrağımız şəhidlərimizin əziz xatirəsinə və Zəfər Gününün şərəfinə əbədi yüksəkliyə ucaldıldı. 2,5 hektar ərazini əhatə edən Bayraq meydanı milli ornamentlərin - buta və xarıbülbülün əks olunduğu memarlıq elementləri ilə dizayn edilib. Meydanın 8 noyabrda - tarixi Zəfər Günündə istifadəyə verilməsinin digər bir rəmzi mənası da vardır: Muxtar respublikanın ən gənc rayonu olan Kəngərli əhatə etdiyi ərazisi etibarilə qədim tarixə söykənir. O qoca tarix bir çox hadisələrin - müharibələrin şahidi olub. Vətəni, eli-obanı qorumaq həm də güc tələb edib. Vətəni müdafiə etmək əşqi döyüşkən, mübariz, vətənpərvər nəsil yetişdirib. O nəsil isə vətənpərvərliyi ali dəyər kimi özündən sonrakı nəsillərə miras olaraq ötürüb. Zəfərlə bitən Vətən müharibəsində Kəngərlidən olan döyüşçülərin də payı az deyil.

## Xəyalla Yusifin dünyası

Bayraq meydanının yaxınlığında, rayon mərkəzində - Qıvraq qəsəbəsində ucalan yeddimərtəbəli binanın qarşısındayam. Nərmin xanımla görüşüb evə daxil oluruq. Uşaqların - Xəyalla Yusifin şən gülüşü mənzili bürümüşdü. Başları oyuna elə qarışmışdı ki, evə qonaq gəldiyinin fərqində belə deyildilər. Əslində, onlar heç nəyin fərqində deyildilər, çünki uşaq ağlı müharibə, soyqırımı, faciə kimi insanlığa zidd nəsnələri qavramağa hazır deyil. Onlar üçün dünya sülh rəmzi olan ağ göyərçinlər, dəniz mavisi səma, çəmənləri, düzləri bəzəyən al yanaqlı lalələr qədər rəngarəngdir. Hələ də inanırlar ki, bir gün qapını qonaq deyil, ataları Fuad döyəcək...

Bütün gerçəklər isə analığa yanaşı, atalıq missiyasını da yerinə yetirməyə məhkum edilən Nərmin xanımın hüzn dolu baxışlarında donub qalıb. 5 oktyabr 2020-ci il tarixində...

Bəs kimdir Nərmin xanımın baxışlarına yoxluğunun nəqşini vurmuş qəhrəman? Kimdir Nərmin xanımın zərif çiyinlərinə ağır yükü qoyub gedən adam?

## Suqovuşan - arzulara qovuşduran...

İsmayılov Fuad Murad oğlu 26 oktyabr 1986-cı ildə Şərur rayonunun Qıvraq kəndində (o vaxt Qıvraq Şərur rayonunun tabeliyində idi) anadan olub. Qıvraq 1 nömrəli orta məktəbin 8-ci sinfini bitirdikdən sonra sənədlərini Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə verib. 2002-2005-ci illərdə liseydə təhsilini başa vurub Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə motoatıcı ixtisası üzrə həmin məktəbi bitirib. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 1 il kurs keçib. Xidmətə başlayan leytenant Fuad İsmayılov mayor rütbəsinədək yüksəlib. 2019-cu ildən "N" hərbi hissəsində tabor komandiri vəzifəsində xidmət edib. 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib.

Suqovuşanın azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. İllərlə düşmən tərəfindən burada çox güclü istehkamlar qurulmuş, sədlər yaradılmışdı. Talış kəndinin və Suqovuşanın yerləşdiyi ərazidə düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi. Çünki bu qəsəbənin əldən getməsilə Azərbaycan Ordusunun gələcək əməliyyatlarında tam üstünlük təşkil edəcəyini düşmən yaxşı bilirdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmənin yerləşməsinə rəğmən Talış kəndi və Suqovuşan oktyabrın 3-də işğaldan azad edilir. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı azadlığına qovuşdurur. Müharibənin ilk günlərində strateji əhəmiyyətli Suqovuşanın işğaldan azad edilməsi böyük uğur idi. Bu uğura imza atanlardan biri də Fuad İsmayılov idi. Döyüş yoldaşı polkovnik-leytenant Əkrəm Şadmanov Fuad haqqında bu sözləri söyləyib. "Fuad Azərbaycan zabitinə xas müsbət keyfiyyətlərə sahib komandir idi. Komandir kimi idarəçiliyi, qayğıkeşliyi, yüksək hərbi bilikləri və şəxsi keyfiyyətləri tabeçiliyində olan hər bir şəxsdə ona qarşı sevgi və rəğbət qazandırmışdı. Vətənpərvərliyi, cəsurluğu və idarəçilik qabiliyyəti döyüş meydanında əsgərlərinə ruh yüksəkliyi aşılayırdı. Torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə atılmaq, bu müqəddəs yolda, Vətən uğrunda can verməmək onun çoxdankı arzusu idi. O, mayor rütbəsinədək yüksəlmişdi, Suqovuşan onu daha ali mərtəbəyə - şəhidlik mərtəbəsinə yüksəldir və arzusuna qovuşdurur. Fuad İsmayılov 14 yaşından taleyini hərb peşəsinə bağlayan, canını Vətənə fəda edən rəşadətli zabitdir!"



## Fəxri xiyabana aparan yol...

- Bilirsiniz, Bakıda yaşadığımız müddətdə bir neçə dəfə desəm də, o, məni Şəhidlər xiyabanına aparmadı. Həmişə deyərdi tələsmə, vaxtı çatanda gedəcəksən. Düşünürdüm ki, yəqin, həssas olduğumu nəzərə alıb sıxılmayım deyə məni ora aparmır. Sən demə...

Aprel döyüşləri başlayanda həvəslənmişdi, bizi də aparacaqlar deyirdi, lakin aparmadılar. Buna üzülmüşdü. Peşəsini o qədər sevirdi ki, məzuniyyət dövründə belə evdə otura bilmirdi, işinə gedirdi. Bəzən evdə belə olduğunu unudur, hərbi nizam-intizam qaydalarına müvafiq davranış sərgiləyirdi. Mən anlayırdım ki, bu onun hərbi xidmətə aludəçiliyi ilə əlaqədardır, - Nərmin xanım dedi.

Biz Naxçıvanda idik. Avqustda məzuniyyətə çıxıb gələcəkdi. Xəyallarımız var idi. Oğlumuz Xəyalı birlikdə məktəbə aparacaqdıq. Özü gələcəkdi deyə sənədləri belə hazır etməmişdik. Elə xəyal olaraq da qaldı. Fuad daha müqəddəs arzularının arxasınca getdi. Mənə təlimdə olduğunu deyirdi. Şəhid xəbərini alanda anladım ki, döyüşdə imiş. Bakıda İkinci Fəxri xiyabanda dəfn olunub. Sən demə, Fəxri xiyabana ziyarətim fəxrimlə - Fuadla başlayacaqmış. O, sanki natamam bir kitabı qəhrəman şəhidlərimizlə birgə tamamladıqdan sonra mənə oxumağa izn verdi. O kitabın səhifələrində 30 illik yurd həsrətinə son verən zəfər sevinci vardı. O kitabda yarımçıq qalmış ömürlər, arzular vardı, həm də bütün bunları üstələyən Vətən, yurd məhəbbəti. Fəxri xiyabana ilk gəlişim idi, gerçəklərlə üz-üzə dayanmışdım. Mən tək Fuadı deyil, həmin günü cəmi torpaq altda yatan şəhidlərimizi bütün ruhumla anladım. Anladım ki, Vətən torpaqlarının üstündə biz rahat və güvənlə yaşayaq deyə, altı da möhkəm olmalı, güvənli olmalı. Şair nə gözəl demiş: "Basdığın yerləri torpaq deyərək keçmə, tanı, Düşün altında minlərcə kəfənsiz yatanı". Mən Fuadla fəxr edirəm. Sadəcə bir kəlmə pıçıldadım: Arzuna çatdınmı?

Torpaqların işğaldan azad olunması hamımızın arzusu idi. Onlar tək özlərini deyil, bizi də arzumuza qovuşdurdular. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm.

Nə qədər güclü dayanmağa çalışsa da, gözləri bulaq kimi çağlayırdı. Axı ona verilən suallar bitməyib hələ də. Bəlkə də ömrünün sonunadək davam edəcək...

- Kiçik oğlumuz Yusifin 5 yaşı var. "Hamının atası gəlir. Bəs mənim atam haçan gələcək? - deyə sual edir. Xəyalsa hələ də öz xəyallarını qurur. Atam gəlsin, ta şuluq etməyəcəm, sözə baxacam, birlikdə yenə parka gedək. Deyirəm, sən dərslərini yaxşı oxu, o səni görür, izləyir. Bəzən özüm də uşaqlaşıram, gözüm qalır qapıda, elə bilirəm Fuad haçansa gələcək...

Yusif əlində silah oyuncaqla oynayırdı. Xəyalla dialoqum isə çox qısa oldu:

- Böyüyəndə kim olmaq istəyirsən?
- Əsgər!

## "Biz övladlarımızı bu ruhda böyütdük"

Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasından oxuyuruq:

O şənbə gecəsi doğulanların,
Onundan doqquzu oğlanmış
demə.

Söhbət Qanlı Yanvar gecəsindən gedir. Fuad İsmayılovun atası Murad İsmayılovla həmsöhbətik. Ömrünün 45 ilini idman müəllimi kimi fəaliyyət göstərən Murad İsmayılov o ağır günlərin şahididir. 3 oğul, bir qız övladı böyüdüb. Oğullarının hər üçü hərb peşəsini - Vətəni qorumaq peşəsini seçib. "İtirilmiş torpaqlar, üstəgəl Xocalı faciəsi. Biz bunların şahidi olaraq necə rahat ola bilərdik? Həmin dövrdə müəllimlər də səfərbər oldular, əməklərini vətənpərvər şagirdlər yetişdirməyə sərf etdilər. Fikir versəniz, Kəngərli rayonu üzrə nə qədər gənc hərb peşəsinə yönəlib. Elə təkcə rayonun Xok kəndi Vətən müharibəsində 7 şəhid verib. Mən də həm bir müəllim, həm valideyn olaraq övladlarımı bu ruhda böyütdüm. Fuad ailənin ilk övladıdır. Mən fəxr edirəm ki, torpaqlarımızın işğaldan azad edilməsində biz İsmayılovlar ailəsinin də payı var. "Ata qəhrəman övladı ilə qürur duysa da, gözləri dolur, nəzərlərini qaçırmağa çalışır: "Sonuncu dəfə bizimlə 3 oktyabrda danışdı. Çox şən idi. Ayın 4-ü zəng eləmədi. 5 oktyabrda qəfil zəng gəldi. Oğlunuz şəhidlik mərtəbəsinə ucaldı, dedilər. Bu, mənim "5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü"nə heç vaxt unutmayacağım hədiyyəm idi bəlkə də... Axı mən Fuadı bir döyüşçü kimi yetişdirmişdim".



## Sınaqlardan üzüağ çıxan qəhrəman

Heydər Əliyev adına Hərbi Liseyin 2005-ci il buraxılışına həsr olunmuş "Mən sərkərdə olacağam" adlı kitabdan Fuad İsmayılovun yazısını oxuyuruq: "Hələ sovet dövründən Qıvrağın düz mərkəzində hərbi hissə yerləşib. İndi Qıvraqdakı hərbi şəhərcikdə Azərbaycan oğulları əsgəri borclarını şərəflə yerinə yetirir, müasir hərb elminin sirlərinə yiyələnirlər. Mən də gələcəkdə Azərbaycan Ordusunun zabitlər korpusunda öz yerimi tutacağamsa, buna hamıdan çox valideynlərim və dostlarım sevinəcəklər. Mən bu yolda bütün çətinliklərə sinə gərməyə, sınaqlardan kişi kimi çıxmağa hazıram".

Püruzə ana söhbətə qatıldı. Dedi ki, otağında düzəltdiyimiz guşəsinə diqqətlə baxsanız, fotolarla yanaşı, qəzet nümunələri də görəcəksiniz. "Tarixdə baş vermiş hadisələri, xüsusən də Fuada çox pis təsir edən Xocalı faciəsi ilə bağlı yazılmış materialları yığıb saxlayır, əsgərlərinə bu mövzular barədə danışırdı. Deyirdi ki, gec-tez biz düşməndən qisasımızı alacağıq. O, öz arzusuna çatdı. Suqovuşanda gedən döyüşlər zamanı şəhid oldu. 5 gün döyüş meydanından çıxarmaq mümkün olmadı. 10 oktyabrda İkinci Fəxri xiyabanda torpağa tapşırıldı. Onunla təsəlli tapıram ki, torpaqlarımız azad olundu və Fuad öz arzusuna çatdı".

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun igid zabit və əsgərləri bizim də həsrətimizə son verdilər. Şanlı tarix yazdılar, şanlı ordumuzun şanlı qəhrəmanları! Bu tarixdə mayor Fuad İsmayılovun da adı və əməyi var. Xidməti dövründə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 90, 95, 100 illik yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib. Ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medallarına və 3-cü dərəcəli "Rəşadət" ordeninə layiq görülüb.

Səninlə qürur duyuruq, gənc və gələcək nəsillərə örnək qəhrəman!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Müasir cəmiyyətdə dinin rolu və yeri. Azərbaycanda islami dəyərlərin bərpası. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.

**Suallar:**

**1. Müasir cəmiyyətdə dinin rolu və yeri.**

**2. Azərbaycanda islami dəyərlərin bərpası.**

**3. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.**

### Müasir cəmiyyətdə dinin rolu və yeri

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, din dövlətdən, dövlət də dindən ayrıdır. Buna görə də dövlətin sosial, siyasi, iqtisadi və hüquqi fəaliyyətini müəyyən edən qanunlar qəbul edilərkən dinin bu mövzudakı əmr və qadağalarına görə deyil, sosial ehtiyaclara görə edilir. Dövlət quruluşunun əsası olan dünyəvilik din və vicdan azadlığını dövlət tərəfindən təminat altına alır. Belə ki, o zaman həqiqi din azadlığı ancaq dünyəvi bir dövlətdə reallaşa bilərdi. Ancaq belə bir dövlətdə vətəndaşlar heç bir müdaxilə olmadan öz dinlərini seçə bilərlər. Dünyəvi bir dövlətdə din azadlığı, hər hansı bir dinə inanma və onun ibadətlərini yerinə yetirmə azadlığını təmin etdiyi kimi, vətəndaşların heç bir dinə inanmama və heç bir dinin ibadətlərini yerinə yetirməmə azadlığını da təmin edir. Dövlətin vətəndaşı ilə münasibəti dini və ideoloji deyil, ədalət çərçivəsində olmalıdır. Dövlətin əsas vəzifəsi, ədaləti, daxili və xarici təhlükəsizliyi təmin etmək, vətəndaşların haqq və azadlıqlarına əngəl olan problemləri aradan qaldırmaqdır. Bu səbəbdən də dövlət bu gün ölkənin gələcəyi üçün lazım olan tədbiri görməkdədir. Yəni, vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur. Bu istiqamətdə dövlətin sekulyar dəyərləri və prinsipləri daha kəskin və aydın qoyulur.

Azərbaycanda din-dövlət, eyni zamanda, cəmiyyət-dövlət münasibətləri milli-mənəvi dəyərlərlə yanaşı, həm də universal və multikultural dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası kontekstində tənzimlənir. Bu baxımdan, cəmiyyətə sağlam təfəkkürlü vətəndaş qazandırmaq üçün dərin dini-fəlsəfi dünyagörüşünə, bədii-etik təfəkkürə və yüksək estetik zövqə malik olan insan yetişdirmək lazımdır. Belə ki, bu da dövlətin düşünülmüş, planlı və uzaqgörən siyasətinə əsaslanan proqramın tərtib olunmasına və onun həyata keçirilməsinə bağlıdır. İnanmaq lazımdır ki, əgər dövlət vətəndaşını və ölkənin gələcəyini düşünərək, bütün bunları sistemli şəkildə həyata keçirərsə, gələcəkdə cəmiyyətdə problem və təhlükə yaradan radikal, fanatik fərdlər ortaya çıxmaz. Əkstəqdirdə isə dini ehtiyac və tələblər qeyriləri tərəfindən təmin edilərsə, o zaman cəmiyyətdə daha da radikal, fanatik və cəmiyyət üçün təhlükə yaradan qüvvələr və fərdlər ortaya çıxa bilər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev cəmiyyətdə dinin böyük rolu və yeri olduğunu belə qeyd edib: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin tətbiqi və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir. Son illərdə MDB Dinlərarası Şurasının, MDB Müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən dünya dini liderlərinin sammitlərinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir".

### Azərbaycanda islami dəyərlərin bərpası

Respublikamızda dünyəvi dövlət şəraitində dövlət-din münasibətlərinin tənzimlənməsi, dini-mənəvi dəyərlərin pozitiv potensialından səmərəli və məqsədyönlü istifadə olunması ilə bağlı görülən böyük işlərin mahiyyətini düzgün başa düşmək üçün müstəqillik dövrünün ilk illərində ölkənin dini durumuna ani olsa da, nəzər salmaq labüddür. Milli müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi, 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlüklə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Bu sistem insanlara öyrədirdi ki, "Allah yoxdur, din mövhumat və xurafatdan başqa bir şey deyildir, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir". Sovet dövründə yaşayıb-böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü itirdi - çaşıb qaldı, nə edəcəyini bilmədi. Bəzilərində bu hal daha kəskin xarakter aldı. Vəziyyətdən sui-istifadə etmək istəyənlər də az olmadı. Ölkədə qeyri-ənənəvi dinləri, deskruktiv sektaları yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatların fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi. Din ölkədə müxtəlif siyasi qüvvələrin süni surətdə yaratdığı qarşıdurmaya cəlb edilir, ayrı-ayrı bölgələrdə özünü göstərən separatizm cəhdlərində ortaya atılan şüarlarda dindən siyasi məqsədlərlə istifadə etmək meyli, dini dözümsüzlük, ayrı-seçkilik əhval-ruhiyyəsi özünü büruzə verirdi. 1992-ci ildə tələsik, bölgədə dinin yayıldığı tarixi şəraiti tam nəzarətə almadan hazırlanmış "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də dini durumda dövlət nəzarətini təmin edib, köklü dəyişiklik yarada bilmədi. Əksinə, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, müxtəlif missioner təşkilatları qanundan və xüsusilə orada olan boşluqlardan istifadə edərək insan haqları və əsas azadlıqlar adı altında hətta milli təhlükəsizlik və ictimai asayiş tələblərinə cavab verməyən dini firqələrin ölkəmizə və millətimizə yad inanclarını yaymağa başladılar. Bir çox dini icma xaricdəki dini mərkəzlərin və missioner təşkilatlarının ölkədə təbliğçilərinə çevrilmişdi. Azərbaycanda dərin köklərə malik olmayan qeyri-ənənəvi dinlər geniş təbliğ edilirdi. Dini durumda tam aşkar olmasa da, qeyri-stabillik meylləri özünü göstərir, radikallaşma prosesi canlanır və beləliklə, ümumi stabillik və hətta dövlətçilik üçün təhlükə notları səslənirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlılıq durumu mürəkkəb və ziddiyyətli idi. Yalnız ulu öndər Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilər, dövlətin strateji xəttinə əsasən tənzim edə bilərdi. İlk növbədə, din-dövlət münasibətlərində yaranmış uçurum aradan götürülməli, qarşılıqlı inam bərpa olunmalı, dövlətin antidin, ateist siyasəti yeritməməsinə insanları inandırmalı, dinin həqiqətən də milli-mənəvi dəyərlərdə yerini müəyyən etmək tələb olunurdu. Hər şeydən əvvəl vəziyyətdə köklü dəyişiklik yaratmaq üçün problemə münasibət bildirməklə yanaşı, qanuni zəmin hazırlamaq lazım idi. Bu məqsədlə "Dini etiqad azadığı haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən dəyişikliklər edildi, bəzi maddələr ləğv, bəzisinə isə əlavələr edildi.

Ulu Öndər məscidlərə gedir, dini münasibətlərlə keçirilən mərasimlərdə iştirak edir, dindarlarla görüşür, dövlətin strateji xəttini özü şəxsən izah etməyə çalışırdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev çıxışlarının birində bildirirdi ki, Azərbaycanın straleji yolu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan keçir. Əlbəttə, dünyəvi dövlətçilik prinsipi dövlətin dindən ayrılığını nəzərdə tutur. Lakin vətəndaş, bütövlükdə isə xalq və millət dindən ayrı deyildir. 1-2 oktyabr 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfransda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsipini daha geniş açıqlayaraq demişdir ki: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir.

Roma papası İoann II Pavel 2003-cü ilin mayında Bakıda olarkən demişdi: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir". Bu stabillik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür.

### Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir

Azərbaycan xalqı olduqca mühüm və bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın humanist dünyagörüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir. Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Tarixin bütün dövrlərində dünyanın demək olar ki, hər bir tərəfində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin Azərbaycanda yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ən əsası, bu, dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Ulu Öndərin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən insanların etiqad azadlığı təsbit olundu. Respublikamızda yaşayan hər bir etnik azlığın, hər bir xalqın təmsilçilərinin mədəniyyətinin, dəyərlərinin müxtəlif qanunlar və normativ-hüquqi aktlarla təsbit edilməsi, mükəmməl qanunvericilik bazasının formalaşdırılması və digər bu kimi mühüm addımlar da aparılan bu məqsədyönlü siyasətin tərkib hissəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlət başçısı mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir. Prezident İlham Əliyev cənablarının Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar öz bəhrəsini verməkdədir. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması bu sahəyə diqqəti daha da artırır və eyni zamanda, dünyanı alternativi olmayan multikulturalizm və tolerantlıq siyasətindən daha effektiv şəkildə faydalanmağa dəvət edir.

Azərbaycanda yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin dövlətçiliyimiz naminə daim həmrəylik nümayiş etdirmələri xalqımızın yüksək multikultural və tolerant dəyərlərə malik olmasının bariz nümunəsidir. Ölkəmizin inkişafı, qüdrətlənməsi ilə yanaşı, ərazi bütövlüyümüzün qorunmasında da burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri hər zaman qəhrəmanlıq və vətənpərvərlik nümunələri ortaya qoyublar. Biz 44 günlük Vətən müharibəsində də bunun bir daha şahidi olduq. Torpaqlarımızın işğaldan azad olunması zamanı Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də əsl qəhrəmanlıq nümunələri göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalanlar oldu. Bir daha təsdiq olundu ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bu torpağı canı qədər sevir və uğrunda ölməyə hazırdır.

Dövlət vətəndaşlarının dini-fəlsəfi dünyagörüşünün, bədii-etik təfəkkürünün və estetik zövqünün formalaşdırılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir" - deyərək multikulturalizmin Azərbaycanın dövlət siyasəti olmasını təsadüfün deyil, əksinə, qədim dövrlərdən üzü bu yana xalqımızın həyat tərzi kimi xarakterizə etmişdir. Çünki Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemi tolerant münasibətlər içərisində birgə yaşayış ənənəsi Azərbaycan xalqının formalaşdığı bütün dövrlərdə müşahidə edilmişdir. Təbii ki, bu tendensiya Azərbaycan xalqının sahib olduğu dəyərlər sisteminin bütün nümunələrində əsas istiqamətlərdən biridir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Kəngərlidən pərvazlanıb, Qızıllı Kəngərlidə şəhidlik zirvəsinə ucalan tankçının xatirəsi anılıb



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 19 aprel Cəmşid Naxçıvanski adına Hərbi Lisey günü ərəfəsində Ağdam rayonunun işğaldan azad olunan Qızıllı Kəngərli kəndində şəhid zabit Əhməd Suliddin oğlu Mehbalıyevin xatirəsinə həsr edilən tədbir keçirilib.

Müdafiə Nazirliyi rəsmilərinin, bölgədə xidmət keçən hərbi qulluqçuların və yaradıcı heyət üzvlərinin iştirak etdikləri tədbirdə respublikamızın ərazi bütövlüyü, tarixi torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək şəhid baş leytenantın hər bir gənc üçün örnək olan mənalı ömür və döyüş yolundan söhbət açıb.

Qeyd edilib ki, Əhməd Mehbalıyev 1 sentyabr 1968-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub. Qıvraq indi qəsəbə olmaqla, yeni yaradılan Kəngərli rayonunun mərkəzinə çevrilib.

Kəngərli rayonundan pərvazlanan Əhməd kənd orta məktəbində 7-ci sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb, Kazan Ali Tank Məktəbini bitirib. Bir müddət Kiyev, Moskva şəhərlərində tank qoşunlarının hərbi hissələrində tank komandiri kimi xidmət edib.

Nəzərə çatdırılıb ki, 1991-ci ildə Vətənə qayıdan gənc zabit ilk gündən Qarabağ uğrunda döyüşlərə yollanıb. Şuşa, Laçın, Qubadlı, Kəlbəcər, Tərtər döyüşlərində əsl peşəkarlıq, qəhrəmanlıq və igidlik nümunələri göstərib.

Silahdaşlarının "Kəngərli balası" deyə çağırdıqları tank taqımı komandiri baş leytenant Əhməd Mehbalıyevin ömür yolu 1993-cü ilin 25 iyununda Ağdam rayonunun Qızıllı Kəngərli kəndində şəhidliklə başa çatıb. O, bu kənd uğrunda düşmənlə qeyri-bərabər döyüşdə son nəfəsinədək döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Bakıda Birinci Şəhidlər xiyabanında böyük izdihamın iştirakı ilə son mənzilə yola salınan igid tankçı Əhməd Suliddin oğlu Mehbalıyev Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

Xatirəsi həmişə əziz tutulan şəhid zabitin adı Bakı şəhərindəki küçələrdən birinə verilib, 50 illik yubileyi təntənəli şəkildə qeyd edilib.

Hərbi qulluqçulardan Seymur Həbibullayev, Fəqan Əliyev, Ramil Nəzərov və başqaları çıxış edərək Əhməd Mehbalıyevin, eləcə də bütün şəhidlərimizin intiqamını aldıqları və Vətən müharibəsində qazandıqları möhtəşəm zəfər ilə xalqımıza böyük Qələbə sevinci yaşatdıqlarını iftixar hissi ilə vurğulayıblar.

Xidmətdə fərqlənən döyüşçülərə tankçı Əhməd Mehbalıyev haqqında da geniş məlumat verilən Abdulla Qurbaninin "Böyük gələcəyə baxış" adlı yubiley nəşri hədiyyə edilib.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti şəhidlərin ölməzliyinə, Müzəffər Ordumuzun qalibiyyətinə, döyüşçülərimizin şücaətinə həsr olunan ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

## Medallı igidlərimiz

# 44 günlük uğurlu döyüşlər unudulmayacaq

Azərbaycan əsgərinin ən böyük arzusu, istəyi Ali Baş Komandanımızın verəcəyi döyüş əmri ilə Vətən torpaqlarını işğaldan azad etmək idi. Məkrli niyyətindən əl çəkməyən düşmən son zamanlar tez-tez təxribatlara əl atır, atəşkəsi pozurdu. 2020-ci il sentyabrın 27-də düşmənin layiqli cavabını verən şanlı ordumuz cəbhənin bütün istiqamətlərində işğalçıları geri çəkilməyə məcbur etdi. 44 gün davam edən əks-hücum əməliyyatında düşmən darmadağın edildi, əzəli və əbədi Vətən torpaqları öz həqiqi sahiblərinə qovuşdu. Möhkəm iradənin, sonsuz etimadın, misilsiz şücaətin vəhdəti ilə yazılan bu Zəfər salnaməsi xalqımız var olduğu müddətdə yaşayacaqdır. Bu Zəfəri öz qanı, canı, sağlamlığı hesabına xalqa bəxş edən oğullarımız Azərbaycan gəncliyi üçün qəhrəmanlıq, vətənpərvərlik nümunəsi olacaqdır.

- Məhz Azərbaycan əsgərinin sarsılmaz döyüş ruhu və yüksək mənəvi-psixoloji hazırlığı sayəsində düşmənin uzun illər möhkəmləndirdiyi sədlər qısa müddət ərzində darmadağın edildi, - deyə söhbətə başlayan mayor Teymur Qurbanəliyev fikrini davam etdirdi. - Uşaq ailənin güzgüsüdür, - deyirlər, hərbdə isə əsgər komandirinin güzgüsüdür. Əsgərin yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, qorxmazlıq,



düşmənə nifrət, xalqa sədaqət kimi müsbət keyfiyyətlərlə formalaşmasında komandir mühüm rola malikdir.

Mayor T.Qurbanəliyev 44 günlük haqq savaşında şəhid olan zabit Abakar Hacıyevdən danışdı. Dedi ki, şəhid polkovnik-leytenant Abakar Hacıyev vətənpərvər zabit, yaxşı silahdaş idi. Əsgərlərə doğma münasibətlə yanaşır, onların qayğıları ilə maraqlanırdı. Şəxsi heyətin qarşısında hər zaman haqq savaşının uzaqda olmadığını vurğulayırdı. Daim əsgərlərin yanında komandir kimi yox, onların ən yaxın dostu kimi dayanırdı. Döyüş tapşırığı aldığı ilk gündən son nəfəsinədək əsgərlərin yanında olan zabit müqəddəs amal uğrunda canını qurban verdi, şəhidlik zirvəsinə yüksəldi...

Tarixi salnaməni qanı ilə yazan oğullarımız başımızın tacıdır, onlar xalqımızın sonsuz ehtiramını qazanıblar.

Söhbət əsnasında öyrəndim ki, zabitin atası Əli Qurbanəliyev də hərbçi, Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. "Qismətimdə atamın yolunu davam etdirmək də var imiş. Atam Əli Qurbanəliyev Birinci Qarabağ müharibəsinin, mən isə İkinci Qarabağ müharibəsinin iştirakçısıyıq. Fəxr edirəm ki, müqəddəs missiyada mənim də az da olsa payım var. Döyüşlər zamanı Füzuli, Xocavənd, Cəbrayıl rayonlarında keçirilən əməliyyatlarda iştirak etmişəm. Xidmətimin ən unudulmaz günləri məhz 44 günlük Vətən müharibəsi dövrünə təsadüf edir. Biz cəbhədə olsaq da, Ali Baş Komandanımızın, xalqımızın sonsuz inamını və etimadını duyur, bu duyğunun aliliyini əsgərlərimizə izah edirdik. Komandir olaraq, əsgərləri qələbəyə kökləyirdik. Onlar da öz üzərlərindəki məsuliyyəti hiss edirdilər - işğalı sonlandırmaq, torpaqlarımızı düşməndən təmizləmək üçün gecə-gündüz düşmənə qarşı döyüşürdülər. İşğalçıya sarsıdıcı zərbələr vururdular. Azərbaycan əsgəri ona olan ümidləri layiqincə doğrultdu.

Əsgər xalqın ümid yeri, xalq isə əsgərin ilham mənbəyi idi. Bir zamanlar mənfur düşmən işğalında olan ata-baba torpaqlarımızda bu gün Azərbaycan əsgəri inamla, şərəflə xidmət edir. Şəhidlərimizin ruhu şaddır, onların valideynlərinin, övladlarının, bir sözlə, doğmalarının başı dikdir, çünki xalqımız bu qələbəni öz qanı və canı bahasına bizlərə bəxş edən övladlara sonsuz minnətdardır. 44 günlük tarix əsrlər boyu unudulmayacaq", - deyə zabit bildirdi.

Vətənimizin işğaldan azad olunması zamanı qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdiyinə görə mayor Qurbanəliyev Teymur Əli oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İraqın şimalında 19 terrorçu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri tərəfindən İraqın şimalında yerləşən Metina, Zap və Avaşin-Basyan bölgələrində "Pəncə-Kilit" şərti adı altında başladılan növbəti antiterror əməliyyatı zamanı 19 terrorçu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumatda deyilir: "İraqın şimalında törədilən terror aktlarını aradan qaldırmaq və sərhəd təhlükəsizliyimizi təmin etmək məqsədilə aprelin 17-si axşam saatlarında "Pəncə-Kilit" əməliyyatına start verilib. Birinci mərhələ hədəflərinə nail olunub.

Əməliyyatların planlaşdırıldığı kimi davam etdiyi bildirilən məlumatda qeyd olunur ki, türk əsgəri bölgəni nəzarət altına almağa başlayıb. Axtarış işləri davam edir. Terrorçuların bütün sığınacaqları, bunkerləri və guya qərargahları, həmçinin mağara və yuvaları bir-bir məhv ediləcək.

Əməliyyatla bağlı açıqlama verən Türkiyənin milli müdafiə naziri Hulusi Akar indiyədək planlaşdırılan bütün hədəflərin ələ keçirildiyini və çoxlu sayda terrorçunun zərərsizləşdirildiyini bildirib.

Qarşıdurmada Türkiyə Silahlı Qüvvələrinin dörd əsgərinin yüngül bədən xəsarəti aldığı bildirilir.

## İranda hərbi parad keçirilib



Aprelin 18-də Tehranda və digər böyük şəhərlərdə İran Ordusunun yaranması günü qeyd olunub.

Ordu Günü münasibətilə Tehranda keçirilən hərbi paradda İranın yeni "Fəth" reaktiv yaylım atəşi sistemi nümayiş olunub.

Yüksək rütbəli generalların da iştirak etdiyi hərbi paradda çıxış edən Prezident İbrahim Rəisi bəyan edib ki, İran Ordusu sanksiyalara baxmayaraq, böyük inkişaf yolu keçərək qüdrətlənib. Bu gün ordumuz yalnız regionda deyil, bütün dünyada tanınır. Prezident bildirib ki, ordu xalqı və inqilabın nailiyyətlərini qorumaq üçün daha da gücləndirilməlidir.

İran Prezidenti nəzərə çatdırıb ki, rəsmi Tehran heç bir zaman silahlı münaqişələr və müharibələr istəyində olmayıb. Lakin xalqın mənafeyini və İslam inqilabının varlığını qorumaq üçün güclü ordumuz olmalıdır. Güclü ordu dövlətin və xalqın varlığı deməkdir.

Hərbi paradda İran Ordusunun müasir silahları, tankları, raket sistemləri, piyada döyüş maşınları, pilotsuz uçan aparatlar və digər hərbi texnika, eləcə də sursatlar nümayiş olunub.

## Amerikalı senator Ukraynaya ordu göndərilməsini tələb edir



ABŞ Kiyevə dəstək üçün ordu göndərməsə, Ukrayna ikinci Suriyaya çevrilə bilər.

Bu fikri Delaver ştatından olan senator Kristofer Kuns CBS telekanalının efirində səsləndirib.

"Cozef Bayden və onun administrasiyası həm sanksiyalar sahəsində, həm də bir vaxtlar kənarda qalan ölkələrin bu mübarizəyə cəlb edilməsi baxımından çox iş görüb. Lakin kritik an yetişib", - deyə siyasətçi bildirib.

Bir müddət öncə ABŞ Prezidenti Cozef Bayden Ukraynaya artilleriya sistemləri, zirehli transportyorlar və helikopterlərin də daxil olduğu 800 milyon dollarlıq yeni hərbi yardım paketini elan edib. Rusiyanın Xarici İşlər Nazirliyi isə bunun cavabında ABŞ da daxil olmaqla Ukraynaya silah göndərən bütün ölkələrə nota verib.

**AZƏRTAC-ın materialları əsasında**

# “Şahin” hərbi-idman oyunları keçirildi





Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində "Şahin" hərbi-idman oyunları üzrə Qaradağ rayon birinciliyi keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, hərbi hissənin zabitləri, Qaradağ rayon Gənclər və İdman idarəsinin rəisi Elçin Abbasov və "Şahin" hərbi-idman oyunlarının baş hakimi İlqar Qasımov iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan hərbi hissənin zabiti polkov-





nik-leytenant Eldəniz İsmayılov gənc nəslin vətənpərvərlik tərbiyəsinin düzgün təşkilinin böyük aktuallıq kəsb etdiyini deyərək, iştirakçılara uğurlar arzuladı.

Qaradağ rayon Gənclər və İdman idarəsinin rəisi Elçin Abbasov "Şahin" hərbi-idman oyunlarının əhəmiyyətindən danışdı. Bildirdi ki, bu oyunlar gənclərdə sağlam həyat tərzinin formalaşmasında və hərbi vətənpərvərlik hissinin aşılanmasında çox mühüm rol oynayır. "Bu gün Qaradağ rayon birinciliyi üzrə keçirilən "Şahin" hərbi-idman oyunlarında iştirak edən gənclərimiz sabah regionun ən güclü, qalib və rəşadətli Azərbaycan Ordusunun əsgəri olacaqlar. Vətən müharibəsində böyük zəfər qazanan cəsur Azərbaycan əsgərlərini xüsusi vurğulamaq istərdim. Onlar qorxmazlıq və qəhrəmanlıq nümayiş etdirərək illərdir işğalda qalan torpaqlarımızı azad etdilər. Xalqımıza Böyük Qələbə sevincini yaşatdılar.

Beləliklə, "Şahin" hərbi-idman oyunları yeniyetmələrimizin, gənclərimizin gələcəkdə ordu sıralarında layiqincə xidmət etməsi, mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsi, onlarda Vətənə məhəbbət hissinin yüksəldilməsi baxımından xüsusi önəm daşıyır. Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan gənclərinin vətənpərvərlik ruhu və əzmi sarsılmazdır".

"Şahin" hərbi-idman oyunlarının baş hakimi İlqar Qasımov ölkəmizdə ordu quruculuğuna və idman sahəsinə göstərilən diqqət və qayğıdan söz açdı. “Son illərdə idmançılarımızın beynəlxalq arenalarda əldə etdikləri uğurlar, qazanılan qələbələr onu deməyə əsas verir ki, bu gün xalqımızın gələcəyi olan gənclərin fiziki, mənəvi və elmi hazırlığı Ali Baş Komandan İlham Əliyevin daim nəzarətindədir. Ordumuzun 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində qazandığı misilsiz qələbəsi, əsgərlərimizin torpaqlarımızı düşmən tapdağından qəhrəmanlıqla azad etməsi məhz bu diqqət və qayğının nəticəsidir.

"Şahin" hərbi-idman oyunlarında Qaradağ rayonu üzrə 23 məktəbin 322 şagirdi arasında keçirilən yarışlara start verildi. Əvvəlcə hər biri 14 nəfərdən ibarət komandalar təntənəli marşla tribunanın önündən keçdilər. 8-10-cu sinif şagirdləri yarışın 4 mərhələsi üzrə qüvvələrini sınadılar. Yarışın nəticəsinə görə 22,7 balla 180 saylı tam orta məktəb üçüncü, 23,7 balla 195 saylı tam orta məktəb ikinci yeri tutdular. 23,9 bal toplayan 110 saylı tam orta məktəb qalib gələrək Bakı şəhəri üzrə keçiriləcək "Şahin" hərbi-idman oyunlarının final mərhələsinə vəsiqə qazandı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Yasamal rayon orta ümumtəhsil məktəbliləri arasında "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi keçirildi.

Məktəblilər sıra meydanına çıxdıqdan sonra yarış açıq elan edildi.

Çıxış edən Yasamal rayon Gənclər və İdman idarəsinin rəisi İlham Səfərov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Yasamal rayon təşkilatının sədri Bayram Şeydayev və başqaları "Şahin"lərə yarışda uğurlar arzuladılar. Qeyd etdilər ki, "Şahin" hərbi-idman oyunlarına məktəbliləri cəlb etməkdə əsas məqsəd onların gələcəkdə hərbi xidmətə hazırlanması, fiziki göstəricilərinin və xüsusi biliklərinin təkmilləşdirilməsidir. Bildirildi ki, bu yarış Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Mədəniyyət Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə təşkil



edilib.

Rəsmi mərasimdən sonra məktəblilər təntənəli marşla tribunanın önündən keçdilər.

Sonra iştirak edən 19 komanda sıra hazırlığı, fiziki hazırlıq, maneələrin dəf olunması, qumbaraatma, mülki-müdafiə hazırlığı və digər tapşırıqları icra etdilər.

* * *

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Xətai rayon orta ümumtəhsil məktəbliləri arasında "Şahin" hərbi-idman oyunları üzrə rayon birinciliyi keçirildi.

Tədbirdə Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Xətai rayon İcra Hakimiyyətinin Vətən Müharibəsi İştirakçıları və Şəhid Ailələri ilə İşin Təşkili şöbəsinin müdiri Anar Məmmədov, İctimai-Siyasi və Humanitar Məsələlər şöbəsinin müdiri Pənah İmanov və digər qonaqlar iştirak etdilər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəis müavini, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov "Şahin"lərimizə uğurlar arzuladı. "Bu cür oyunlar məktəblilərdə vətənpərvərlik hisslərinin gücləndirilməsində böyük rol oynayır. Məktəbinizi burada təmsil etməyiniz artıq sizin qələbəniz deməkdir. İnanıram ki, yarışın qalibi olmaq üçün hər biriniz tam gücünüzü səfərbər edəcəksiniz. Əldə etdiyiniz bilik və bacarıqlar da gələcək həyatınızda sizə yardımçı olacaq. Sıranızda gələcəyin zabit və gizirləri dayanırlar. Gənclərimizin hərbi tərbiyəsində mühüm əhəmiyyətə malik olan "Şahin" hərbi-idman oyunlarında sizə uğurlar arzulayır, hər bir komandadan yüksək nəticələr gözləyirik".



Rəsmi mərasimdən sonra məktəblilər təntənəli marşla tribunanın önündən keçdilər.

Sonra məktəblilər sıra və mülki müdafiə hazırlıqlarını, növbəti mərhələlərdə fiziki hazırlıqlarını, maneələri dəfetmə bacarıqlarını nümayiş etdirdilər.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
Rəşid HÜSEYNOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 517
Nüsxə 4673